**“Bolt Operations OÜ” şirkəti 01.01.2022-ci ildən başlayaraq “Bolt Rides” platformasını istifadəyə verəcək və şəxsi məlumatların nəzarətini həyata keçirəcəkdir**

Aşağıdakı şirkətlər sizin üçün “Bolt” platformalarının idarə olunmasında iştirak edir:

- **“Bolt Rides” (taksi sifarişi)** - “Bolt Technology OÜ” **(“Bolt Technology”)**
- “Bolt Food” - “Bolt Operations OÜ” (**“Bolt Operations”**)
- “Bolt Rentals” (e-skuterlər və “Bolt Drive”) - **“Bolt Operations”**
- Platforma xidmətinin göstərilməsi üçün yerli lisenziyaya malik şirkət tələb olunarsa, yerli lisenziyanın əhatə dairəsinə uyğun olaraq (**lokal səviyyədə lisenziyalaşdırılmış əməliyyatlar**) yerli müvafiq yerli lisenziyaya malik filialımız və ya tərəfdaşlıq etdiyimiz şirkət.

Nəzərinizə çatdırırıq ki, **01.01.2022-ci ildən** başlayaraq sizinlə aramızda müqavilə münasibətlərinin yaradılması prosesini asanlaşdırmaq və sadələşdirmək üçün **“Bolt Rides”** platformasının operatorluğu baxımından **“Bolt Technology” “Bolt Operations”** ilə əvəz olunacaqdır.

Bu, o deməkdir ki, **“Bolt Rides”** platformasından istifadənizlə bağlı **“Bolt Technology”** ilə bağlanan bütün müqavilələr, o cümlədən şərtlərimizə əsasən wveb-saytında yerləşdirilmiş müqavilələr **01.01.2022-ci ildən** başlayaraq sizinlə **“Bolt Operations”** arasında qüvvəyə minir.

Yuxarıda göstərilənlər lokal səviyyədə lisenziyalaşdırılan əməliyyatlara şamil edilmir. Yerli lisenziyaya malik şirkət **“Bolt Rides”** platforması ilə əlaqələndirilən və yerli lisenziyanın əhatə dairəsinə daxil olan fəaliyyətlərin podratçı şirkəti olmağa davam edir.

Yuxarıda qeyd olunan dəyişiklik həmçinin **bütün platformalarımızla** əlaqədar şəxsi məlumatlarınızın emalını əhatə edən məxfilik siyasətlərinə təsir göstərəcəkdir: **01.01.2022-ci ildən** başlayaraq **“Bolt Operations” hazırda “Bolt Technology”** şirkətinin kontroller kimi çıxış etdiyi bütün hallarda **“Bolt Technology”** şirkətindən məlumat kontrolleri vəzifəsini təhvil alacaqdır.

**“Bolt Technology”** şirkətinin əvəz olunması Estoniya qanunvericiliyinə uyğun olaraq *səhmlərin köçürülməsi* yolu ilə həyata keçiriləcəkdir. Bu, o deməkdir ki, “Bolt Rides” platformasının idarə olunması ilə bağlı müqavilə hüquqları və öhdəliklərinin **“Bolt Technology”** şirkətindən **“Bolt Operations”** şirkətinə ötürülməsi üçün tərəfinizdən hər hansı tədbir tələb olunmur.

Yuxarıdakı dəyişikliklərin əks olunduğu yenilənmiş şərtlər və məxfilik siyasətləri **01.01.2022-ci ildə** və ya həmin tarixdən əvvəl veb-saytımızda dərc olunacaqdır.